# BAĞLILIQ MƏRHƏLƏLƏRİ VƏ UŞAĞIN SOSİALLAŞMASI

***MONTEZİRİNİYA Əkbər Firidun oğlu,***
*AMEA-nın Fəlsəfə, Sosiologiya və*
*Hüquq İnstitutunun dissertantı*

**Açar sözlər**: uşaq, bağlılıq, bağlılığa təsir edən amillər, sosiallaşma.

**Keywords:** the child, attachment, the factors influencing formation of attachment, socialization.

**Ключевые слова**: ребенок, привязанность, факторы, оказывающие влияние на формирование привязанности, социализация.

Uşaqlarda bağlılığa təsir edən amillər hansılardır? Alimlər bu sualı cavablayaraq, əsasən dörd amilə diqqəti yönəldirlər: uşağın bağlanması üçün şərait, uşağa göstərilən qayğının keyfiyyəti, uşağın fərdi xüsusiyyətləri və uşağın ailədə vəziyyəti.

**1. Uşaqın bağlanması üçün fürsət**

Əgər uşaq onun qayğısına qalan fərdlə "emosional əlaqə yaratmağa şərait" və imkan tapa bilməsə, nə olar? Rene Spits [1946] həyata keçirdiyi tədqiqat çərçivəsində müşahidə etdi ki, 3-12 aylıqda anaları tərəfindən tərk edilmiş kimsəsiz uşaqlar daha fərqli bir mühitdə digər uşaqlarla birlikdə (ən azı7 uşaqla) bir dayənin nəzarətində olduqda onların çəkisi azalmış və onlar ətrafdakılardan uzaqlaşmağa meylli olmuşdular. Onların analarını əvəz edən daimi bir dayə olmadığı təqdirdə həmin uşaqlar depressiyaya düşürdülər.

Həmin kimsəsiz uşaqların həyəcanlanma problemi olurdu. Çünki onlar bir yaxud bir neçə böyük və yaşlı insanla ünsiyyətdən məhrum idilər. Tədqiqatçılar öz tədqiqatlarını uşaq-dayə münasibəti daha yaxşı olan bir uşaq evində davam etdilər. Bu uşaqlara kitab və oyuncaq verilirdi. Lakin baxıcılar çox tez-tez dəyişirdi. Yəni hər uşağın orta hesabla 4.5 yaşına qədər 50 baxıcısı olurdu. Bu uşaqların bir çoxu 4 yaşından sonra ailələrə verildikdə yeni valideynləri ilə çox yaxşı emosional əlaqə qura bilirdilər. Bu o deməkdir ki, uşağın valideynə bağlanması hətta 4-6 yaşında da ola bilər [1, s.99-118].

Amma bu uşaqların əksəriyyətinin həyəcanlanma və sosial problemləri varidi. Məsələn, uşaqlar "böyüklərin diqqətinə", "böyüklərlə ifrat səmimiliyə", tanımadıqları həmyaşıdları ilə səmimiliyə meylli idilər və dostluq əlaqələri zəif idi. Rumıniyanın kasıb vəziyyətdə olan uşaq evlərinin birində qalan körpələrdə də qeyd etdiyimiz problemlər müşahidə edilmişdi [2, s.791-801]. Bu nəticələr göstərir ki, uşağın həyatının ilk illərində yaxın emosional əlaqə yaratması və bağlanmasında onun təbii və normal böyüməsinin əhəmiyyətli dərəcədə təsiri var.

**2. Uşaqa göstərilən qayğının keyfiyyəti**

Uşağa göstərilən qayğının keyfiyyəti haqqında demək olar ki, müxtəlif tədqiqatların nəticələrinə əsasən uşaqlara ciddi qayğı, dərhal onların istəyinə reaksiya göstərmək, onları sevmək və sevgi ilə yanaşmaq səbəb olur ki, müxtəlif ictimai və iqtisadi təbəqəyə aid olan uşaqlar analarına bağlı olsun və bu bağlılıq etibarlı bağlılıq (securely attached) hesab edilir. Bunun əksini də müşahidə etmək olar. Yəni inamsız şəkildə bağlanılan (insecurely attached) uşaqlarda anları ilə uşaq arasında fiziki kontakt və əlaqə azdır, onlara diqqət optimal vəziyyətdə deyil, onlara göstərilən qayğı monoton və yorucu olduğundan bəzən uşaqların əziyyət çəkməsinə belə səbəb olur [4, s.605-621].

Hər bir mədəniyyət uşağa həssaslıq baxımından digərindən fərqlənir. Məsələn, Keniyada Gasi (Gusii) əhalisində rəsmdir ki, ana çox nadir hallarda uşağını qucağına alıb yaxud gülərüz onunla ünsiyyətdə olur. Buna baxmayaraq, onlar uşaqlarının tələb və istəklərinə həddindən çox həssasdırlar. Ümumilikdə Gasidəki uşaqların etibarlı şəkildə bağlanıldığını söyləmək olar [Lovayn və həmkarları, 1994]. Buradan belə bir nəticə çıxarmaq olur ki, etibarlı bağlılıq davamlı qarşılıqlı əlaqə ilə yox daha çox "qayğıkeşlik"lə əlaqədardır. Cəmiyyətin diktə etdiyi norma və dəyərləri üstün tutan Puerto-Rikolu analar əsasən uşaqlarının hərəkət və davranışlarını nəzarət edib məhdudlaşdırırlar. Puerto-Rikoda müşahidə edilən bu mədəniyyət də oradakı uşaqların etibarlı bağlılığına səbəb olur. Lakin bir çox Qərb ölkələrində bu növ nəzarət və məhdudlaşdırmanın inamsız bağlılıqla nəticələnəcəyi ehtimal edilir.

Ananın uşağa qeyri-uyğun qayğısı bağlılıqda problemlərin yaranmasına səbəb olur. Uşaqla "kobud" davranmaq və yaxud ona qarşı "diqqətsiz" olmaq inamsız bağlılığın hər üç növü ilə (etinasız, ambivalent və qeri-mütəşəkkil) əlaqədardır. "kobudluğa" məruz qalan uşaqlarda qeyri-mütəşəkkil bağlılıq vəziyyətini müşahidə etmək heçdə çətin deyil. Daima depressiyada olan anaların və öz əzizini itirdiyi üçün daima kədərli olan valideynlərin uşaqlarında pərişan və qeyri-mütəşəkkil bağlılıq vəziyyəti yaranmış olur [8, s.298-307].

**3. Uşaqın fərdi xüsusiyyətləri**

Uşağın fərdi xüsusiyyətlərinin də əhəmiyyəti olduqca böyükdür. Bağlılıq iki fərd arasında olan bir əlaqə olduğundan demək olar ki, uşağın şəxsi xüsusiyyətlərinin rolu olduqca bu prosesə (əlaqəyə) təsir edən amillərdən biridir. Uşağın xəstə olması, anadangəlmə problemə malik olması və çatışmazlıq uşağa qayğı və dayəlik işini çətinləşdirir. Yoxsul və kasıb ailələrdə mövcud olan problemlər inamsız bağlılıqla əlaqədardır. Lakin valideyn uşağın istək və tələblərinə dözüm və diqqətlə yanaşsalar müxtəlif problemlərin təsirində olan uşaq belə etibarlı bağlılığı təcrübə etmək şansının qazana bilər [10, s.915-927].

Həyəcanlıq baxımından "qeyri-stabil və çətin" xarakterə malik olan uşaqların əksəriyyətində inamsız bağlılıq problemi olur [Von İzondoron və həmkarları 2004]. Lakin qeyd etmək lazımdır ki, bütün vəziyyətlərdə "qayğı metodu" ciddi təsirə malikdir. Doğum anından iki yaşına qədər tədqiq edilən uşaqlarda müşahidə edilmişdir ki, "çətin uşaqlar"ın anaları həyəcanlı olur və iki tərəfin bu iki xüsusiyyətinin kompozisiyası ikinci ildə "disharmonik əlaqə" ilə nəticələnir. Bu əlaqə tipini əsas xarakterik cəhəti ananın uşağa qarşı diqqətsiz olması və uşağın inamsız bağlılığıdır. Əslində fərqli xarakteristikaya malik olan bacı-qardaşların təxminən üçdə ikisinin valideynə bağlılığı eyni formada və eyni tipdə olur [12, s.1467-1477]. Bu fakt göstərir ki, ümumən valideyn hər uşağın fərdi tələbat və xarakterinə uyğun olaraq fərqli qayğı metodun seçirlər.

Niyə uşağın xarakterik xüsusiyyətləri ilə "bağlılıq keyfiyyəti" arasında güclü əlaqə yoxdur? Çox ehtimal ki, "uyğunluq və harmoniyanın keyfiyyəti" buna təsir edir. Bu yanaşmaya əsasən ananın mehribançılığı və sevgisi müxtəlif xarakterli uşaqların qətiyyətli bağlılığı ilə nəticələnə bilər. Ümumən "çətin uşaqlarla" daha dözümlü və daha mehriban davranmaq haqda analara verilən təlimlər sevgi dolu qayğı və etibarlı bağlılıqla nəticələnir. Lakin valideynin dözümsüzlüyü (bu valideynin öz şəxsi keyfiyyətləri yaxud həyəcanları ilə əlaqədar ola bilər) uşaqların inamsız bağlılığına, çətin xarakterli olmasına və xəstəliyin səbəb ola bilir.

**4. Uşaqın ailədə vəziyyəti**

Uşağın ailədə vəziyyətinin də böyük əhəmiyyəti var. İşsizlik, ailədaxili konflikt və ailədə iqtisadi problemlərin olması valideynin uşağa həssaslığında problemlər yarda bilər və nəticədə bağlılıq zəif ola bilər. Gərginlik və narahatçılıq doğuran amillər nəticəsində uşaq kobudluq və qeyri-optimal qayğıya məruz qala bilər və bütün bu hərəkətlər inamsız bağlılığın formalaşmasına və uşağın özünü güvənsiz hiss

etməsinə səbəb olur. Sosial himayə və uşağın tərbiyəsində kömək valideynin gərginlik və narahatlığını azaldıb, uşağın etibarlı bağlılığına səbəb ola bilər.

Valideyn öz bağlılıq təcrübələrini ailəyə gətirir və elə bunun əsasında onlarda “real daxili nümunə və model” formalaşır. Valideyn həmin nümunələri öz uşaqları ilə əlaqə prosesində tətbiq edir. Tədqiqatçılar valideynlərin “real daxili nümunə və modellərini” öyrənmək məqsədi ilə onlardan öz uşaqlıq xatirələrini yazmağı xahiş etdilər. Bir neçə Qərb ölkəsində aparılan bu tədqiqin nəticələri göstərdi ki, öz uşaqlıq təcrübələrini səmimi danışan valideynlərin (təcrübələrin mənfi yaxud müsbətliyindən asılı olmayaraq realist və səmimi olan valideynlərin) uşaqları ümumən valideynə etibarlı şəkildə bağlanılmış olurlar. Bunun əksinə olaraq, öz uşaqlıq təcrübələrinə əhəmiyyət verməyən yaxud həmin təcrübələri əsəbi və qeyri-səmimi formada danışan valideynlərin uşaqları öz valideyninə inamsız şəkildə bağlanılmış olurlar [11, s.387-403].

## BAĞLILIĞIN TƏKAMÜLÜ VƏ UŞAĞIN SOSİALLAŞMASI MƏRHƏLƏLƏRİ

Bağlılığın təkamülü və uşağın sosiallaşması mərhələləri haqqında nədqiqatçıların fikrincə uşaqda “idrak təkamülü” ilə yanaşı bağlılığın xarakterik cəhətləri də dəyişir. Yəni ilkin bağlılıq “idrak”, “tanıma” və sonrakı mərhələlərdə “şüurlu və iradəyə əsaslanan maraqlanmaq və məqsədyönlülüyə” doğru inkişaf edir. Tədricən uşaq valideynlə yaxınlığa əhəmiyyət verir, onların əvvəlki və hazırkı davranışları haqda məlumat kəsb edir və öz məqsədlərinə çatmaq üçün həmin məlumat və məharətlərdən istifadə edir. Bütün bunlara əsasən demək olar ki, uşaqlarda bağlılıq dəyişilir və təkamül tapır.

***Birinci mərhələ*: reaksiyaların eyniliyi**

Bu mərhələ uşağın doğulduğu andan 3 aylığına qədər davam edir. Bu mərhələ çərçivəsində uşağın digərləri ilə davranışı xüsusi metodlarla müşayiət olur. Lakin uşaq müxtəlif fərdləri biri-birindən ayıra bilmir və yaxud məhdud formada ayırmağı bacarır. Uşağın ətrafdakılara göstərdiyi davranış formaları əsasən baxışları ilə onu izləməkdən, əlini ilə yapışmaqdan, gülməkdən və qığıldamaqdan ibarət olur. Bu davranış formalarının hər biri tərəf müqabilə (anaya) təsir edərək onların zaman və məkan baxımdan yaxınlığını artırır [13, s.105-117].

Boulbinin fikrincə uşaq ilk doğulduğu vaxtlarda aktivləşmək üçün “hazır davranış sistemlərinə” malik olur. Əvvəlcədən formalaşmış bu sistemlər müxtəlif impulslar vasitəsi ilə aktivləşib və digər impulslar vasitəsi ilə sona çatır. Bu davranış sistem-

lərinin bəzisi bağlılığın sonrakı mərhələləri üçün lazıma olan hərəkət və davranış formalarını (o cümlədən; ağlamaq, yapışmaq, əmmək və s.) təmin edirlər. Tədricən həyatın ilk həftələri və aylarında bu davranış sistemləri və formalarına digər elementlər də (o cümlədən; gülümsəmək, iməkləmək, qığıldamaq və s.) əlavə olur [yenə orada].

Üç aylığa qədər uşağın gülməyi, ağlamağı və qığıldamağı demək olar ki seçim əsasında olmur. Yəni uşaq hər bir fərdi görüb yaxud hər hansı bir səsi eşitdikdə ağlayıb, gülüb yaxud qığıldana bilər. Bəzən gözləri ilə izlədiyi bir insanın uzaqlaşmasına görə ağlayar.

Uşaq doğularkən müxtəlif insani impulslara qarşı əvvəlcədən hazır olan "sosial raksiyalar" sisteminə malik olur. Ehtimal edilir ki, bu reaksiyalar valideyni "heyran" etmək üçün planlaşdırılıb. Uşaq oyaq olduğu vaxt işıq əşyanı yaxud insanları baxışları ilə izləyə bilər, anasına baxaraq onunla qısa əlaqə yarda bilər və başqalarının arxasınca uzun zaman baxa bilər [14, s.95-110]. Uşaq səs eşitdikdə həmin səsə doğru dönür və beləliklə ona reaksiya göstərir. Uşağın ilk gülüşləri sosial gülüş xarakterinə malik olur. yəni o başqa insanlara gülümsəyir, gülüşü digərlərinə yönəlmiş hərəkətdir [yenə orada].

Uşağın doğulduğu ilk vaxtdan etibarən ana-uşaq arasında qarşılıqlı təsir mövcud olur. Həmin vaxtdan başlayaraq valideyn uşağın hər bir hərəkətinə müəyyən məna vermək istəyir, anlar uşaqların hərəkətini tam diqqətlə izləyib ona uyğun reaksiyanı göstərirlər.

Valideynin uşağa diqqəti və onun hərəkətlərinə reaksiyası səbəb olur ki, uşaq öz hərəkətlərinin ehtimali nəticələrini dərk edib, öz davranışının mənasını başa düşməyə başlasın. Doğumdan bir neçə həftə sonra uşaqla valideyn arasında "qarşılıqlı əlaqə" nümunələri formalaşır. Lakin valideyn özü bu nümunələrin formalaşması haqda ciddi məlumata malik olmurlar. Amma bu "cütlüyün" (ana-uşaq) arasında bəzi uzaqlaşma və yaxınlaşma hallarını müşahidə etmək olur. Tədricən uşaq anaya tərəf baxıb yaxud hərəkət etdikdə ana dayanır, gözləyir və uşağa doğru baxır. Uşaq hərəkətini dayandırdıqda ana təhrik olur, aktivləşir, diqqətini uşağa yünəldir, ona doğru hərəkət edir və onun diqqətini cəlb eyməyə çalışır. Növbəti mərhələdə ana dayanır və uşaq təhrik olur. Bu "ardıcıllıq" gələcək əlaqə və linqvistik münasibətin ilk bünövrəsini təşkil edir. Bioloji baxımdan uşaqlar həyatın ikinci ayında başqa insanların davranışına reaksiya verməyə kodlaşıblar. Bu yaşda olan uşaqlar, Şaferin termini ilə desək, sosial mövzulara "ilkin attraksiyanı" (attraction) nümayiş etdirirlər. Yəni 6-8 aylıq olanda insanların üzünə (və hətta maskalara belə) baxıb gülümsəyirlər.

***İkinci mərhələ:*** **reaksiyaların fərqləndirmək**

Bu mərhələdə də əvvəlki mərhələlərdə olduğu kimi uşağın "dostcasına" davranışı davam edir. Lakin bu mərhələdə anaya göstərdiyi reaksiya digər simalara göstərdiyi reaksiyadan fərqlənir. Audio təhriklərə "fərqli reaksiya" dörd aylıqdan sonra və vizual təhriklərə "fərqli reaksiya" 10 aylıqdan sonra başlayır. Əksər uşaqlarda bu iki tip təhrikə (audio və vizual) fərqli və diferensiallaşmış reaksiya 12 aylıqdan etibarən tam aydın formada müşahidə edilir. Deməli bu mərhələdə uşaqda bir növ "dərk edilmiş fərqləndirmə" qabiliyyəti müşahidə edilir. Başqa sözlə uşağın sosial reaksiyaları daha çox, seçimə əsaslanır. Uşaq tanıdığı insanlarla qarşılaşdıqda daha çox gülümsəyir və səslər çıxarır. Həmçinin bu mərhələdə uşaq tanış sima gördükdə daha tez ağlamağa son qoyur [13, s.105-117].

Tanış simalara "fərqli gülümsəmək" uşağın həyatının 3-5-ci aylarında baş verən ən önəmli dəyişiklikdir. Bu dəyişiklik "fokus bağlılığın" yaxud "spesifik bağlılığın" inkişaf əlamətləridir [14, s.95-110]. Bu dəyişiklik uşağın həyatının ən əhəmiyyətli dəyişikliyidir və daha çox onun "yaddaş qabiliyyəti" ilə əlaqədardır. Uşaq ananın simasını digərlərinin simasından fərqləndirir, onu yaddaşında saxlayaraq ona başqaları ilə müqayisədə fərqli reaksiya göstərməyə başlayır.

Araşdırmaların nəticəsinə görə sosial dəyişikliklə idrakı dəyişiklik paralel olur. Lakin uşağın sağlamlığına təsir edən bəzi amillər və şərait idrakı dəyişikliyinə mənfi təsir edir və nəticədə spesifik bağlılıq prosesi ləngiyir. Məsələn amavroz (kor) uşaqlarda bağlılıq mərhələləri daha gec başlayır.

Reaksiyaların fərqləndirməsı mərhələsinin digər özəlliyi bundan ibarətdir ki, uşaq 2-5 aylıqda başqalarının onunla qarşılıqlı əlaqə formasına çox həssas olur (məsələn ananın simasında olan qəfil dəyişikliklərə həssaslaşır). Uşaqların öz anası və digərlərinə verdiyi reaksiyanın tədqiqi və müqayisəsi bunu sübut edir.

***Üçüncü mərhələ*****: bağlılıq mənbəyinə qarşı reaksiyaların artması**

Bu mərhələdə uşaq intensiv olaraq başqaları ilə fərqli metodla davranır. Həmçinin reaksiyalarının diapazonu da genişlənir. Məsələn ana uzaqlaşanda onun ardınca baxıb və gəldikdə onun qarşılayaraq mühit haqda daha çox maraqlanır. Hamıya verilən oxşar reaksiyaların həcmi azalır və əsas bağlılıq mənbəyi olan ana ilə yanaşı bir neçə nəfər də ikinci bağlılıq mənbəyi kimi müəyyənləşir. Başqa sözlə həyatın ikinci ilində uşaqların bağlılığ davranışı yeganə mənbədən daha çox mənbəyə doğru dəyişir.

Şafer və Emersonun [1964a] apardıqları tədqiqatın nəticələri göstərir ki, 18 aylıq uşaqlar nadir hallarda yalnız bir bağlılıq mənbəyinə malik olurlar. Bu tip uşaqlar

araşdırılan nümunələrin sadəcə 13 faizini təşkil edib[13, s.105-117]. Əldə edilən nəticələrə əsasən demək olar ki, uşağın 12 aya qədər bir neçə bağlılıq mənbəyinə malik olması normal hal olsa da, uşaq bu mənbələrin hamısı ilə eyni cür davranmır. Məsələn İnsorsun tədqiqatı göstərdi ki, uşaq aclıq, yorğunluq yaxud xəstəlik hiss edəndə əsas bağlılıq mənbəyinə üstünlük verir və ikinci mənbələrə daha çox əhval-ruhiyyəsi yaxşı olanda meyl göstərir.

Bu mərhələdə uşağın bəzi sistemləri "məqsədyönlü sistemlər"ə çevrilir. Başqa sözlə uşaq daima anasını diqqət mərkəzində saxlayır və ana uzaqlaşdıqda onun izləməyə başlayır. Bu mərhələdə uşağın məqsədi çevrəni və ana ilə əlaqəni qorumaqdır. Əslində uşaq bu məqsədə uyğun olaraq öz davranışını nizamlayır. Anadan ayrılmaq bağlılıq davranışını aktivləşdirir və anaya yetişmək bu davranışı sakitləşdirir. Bu mərhələdə hətta uşağın ağlamaq forması belə "məqsədyönlü davranış sistemi"nə çevrilir. Çünki onun ağlamasının intensivliyinə təsir edən amil ana ilə olan fasilədir.

Uşaq 12 aylığında (bəzən ondan da tez) anadan ayrılarkən intensiv ağlamaq və qışqırmaqla bu ayrılığa öz etirazını bildirir və ananı izləməyə çalışır. Bu yaşda uşaqlar tanımadığı insanları görəndə narahat və həyəcanlı olurlar, valideynə yaxınlaşırlar. Bu reaksiyaya "ayrılıq həyəcanı" deyilir. Əlbəttə araşdırmalar göstərir ki bu reaksiyanın intensivliyi müxtəlif amillərlə əlaqədardır [13, s.105-117]. Nəticədə bu mərhələdə "davamlı yaddaş izləri" tam şəkildə formalaşır və uşaq rastlaşdığı situasiyanı həmin "davamlı yaddaş izləri" ilə müqayisə edərək müəyyən edir ki, bunlar biri-birinə uyğundurlar yoxsa yox.

Müşahidələr göstərir ki, uşaq bu yaşda təkrar-təkrar bir simadan digər simaya baxır ki, necə reaksiya verəcəyinə qərara versin. İlk vaxtlarda "spesifik bağlılıq" kulminasiya nöqtəsində olur. Amma tədricən uşağın ayaq üstə durması və mühitlə daha aktiv formada maraqlanması nəticəsində onun sadəcə ana ilə birlikdə olmaq meyli azalır. Andersonun Park Londonda ana və yenicə ayaq açmış uşaqlarla əlaqədar keçirdiyi tədqiqatın nəticələri göstərmişdir ki, uşaqla 200 futa qədər (hər fut = 30.5 sm) analarından fasilə açırlar lakin fasilə daha çoxaldıqda hər iki tərəf onu azaltmağa çalışır [14, s.95-110].

Həyatın 2 və 3-cü illərində uşaqda ananı "daxili təsviri" (visualization) yaranır və bu təsvirə əsasən öz davranışının nizamlamağa çalışır. Beləliklə sonrakı illərdə o daima ananın yerini yoxlamaq və ona yaxın olmaq əvəzinə uzun müddət ananı daxilən təsəvvür edə bilir və onun rahatca öz işlərinin dalınca getməsinə icazə verir. Yəni anadan uzaq olanda özünü narahat və aciz hesab etmir [yenə orada].

***Dördüncü mərhələ*: Uşağın ana ilə birlikdə ünsiyyətdə iştirak etməsi**

Bu mərhələ əksər uşaqlarda 3 yaşından sonra başlayır. Əvvəlki mərhələlərdə uşaq ananın məqsəd və planları haqda özündə bir təsəvvür yarada bilmirdi. Lakin bu mərhələdə ananın bəzi məqsəd və planlarını başa düşür və nəticədə daha mülayim davranmağa çalışır. Deməli, bu mərhələdə uşaq ananın hisslərini və motivlərini başa düşməyə başlayır. Beləliklə daha mürəkkəb bir münasibətin formalaşmasına zəmin yaranmış olur. Boulbi bu münasibəti "iştirak" adlandırır.

3 yaşa çatmamış uşaqlar "effektiv məqsədli sistemlərə" malik olmurlar. Ona görə də bağlılıq mənbəyinin müxtəlif vəziyyətlərinə uyğun yaxın və yanaşı olmağı qoruyub saxlaya bilmirlər. 3 yaşından sonra uşaqlar "məqsədli hərəkət" sistemindən istifadə edərək bağlılıq mənbəyinin istənilən vəziyyətində onunla yaxın və yanaşı olmaq imkanını qoruyub saxlaya bilirlər.

Hər halda, uşağın böyüdükcə əlavə təcrübələr qazanması və yeni bir şeylərlə tanış olması nəticəsində onun bağlılıq davranışı dəyişir. Üç yaşına qədər müəyyən davranışa motivləşdirən şərait və səbəblər sonrakı illərdə öz effektini itirməyə başlayır. Həmçinin məqsədli davranışı şərtləndirən situasiyalar yüngülləşir. Belə ki, əsasən simvolik xarakteri olan müxtəlif şərait spektrləri (o cümlədən; şəkillər, məktublar, telefon danışıqları və s.) bağlılığ davranışına son qoyurlar. Əslində uşaq 3 yaşından sonra ananın müvəqqəti ayrılmalarına (yoxluğuna) daha çox hazırlıqlı olur. Tədricən tanımadığı məkanlarda ikinci bağlılıq mənbələri ilə olduqda özünü təhlükəsiz hiss edə bilir. Yeniyetməlik dövründə valideynlə bağlılığ zəifləyir və ümumən müxalif cinsə meyl artır. Yetkinlik yaşındakı bağlılıq davranışı uşaqlıqdakı bağlılıq davranışının davamıdır. Məsələn, yetkin yaşlı insanlar xəstələnib, yaxud fəlakətlə rastlaşdıqda, daha çox inandıqları və yaxın adamlarının yanında olmasını istəyirlər [13, s.105-117].

Beləliklə, uşaqlıqdakı bağlılıq halının formalaşması – mürəkkəb bir proses olaraq, onların sosiallaşmasının bütün mərhələlərində öz ifadəsini tapır. Real həyat praktikasında bu, olduqca əhəmiyyətli olan prosesin təkmilləşdirilməsi işində ailəyə xüsusi yardım göstərilməlidir.

## ƏDƏBİYYAT

1. Tizard, B„ & Hodges, J. [1978]. The effect of early institutional rearing on the development of eight-year-old children. Journal of Child Psychology and Psychiatry, 19, 99-118.

2. Hughes. P.; Till-ton. P; Hopper. E; McGauley. G. A; Fonagy. P. [2001]. Disorganised attachment behavior among infants born subsequent to stillbirth. J-Child-Pstcho-Pstchiatry. 42[6]: 791-801.

3. O'Connor, M. J., Sigman, M., & Brill, N. [1987]. Disorganization of attachment in relation to maternal alcohol consumption. Journal of Consulting and Clinical Psychology, 55,831-836.

4. lsebella, R. A. [1993]. Origins of attachment: Maternal interactive behavior actors the first year. Child Development, 64. 605-621.

5. Pederson, D. R. Moran, G. Sitko, C., Campbell, K., Gbcsuire. K. & Action, H. [1990]. Maternal sensitivity and the security of infant-mother attachment: A Q-Sort study. Child Developmental, 67, 915-927.

6. lsebella. R. A. Belsky, J. [1991]. Interactional synchrony an the origins of infant-mother attachment: A replication study. Child Development, 62, 373-384.

7. -Le Vine, R. A. & Miller, P. M. [1990]. Commentary. Human Development. 33, 73-80 Lyons-Ruth, K. ;

8. Kazdin. A. E., Moser, J., Colbus, D., & Bell, R. [1985]. Depressive symptoms among physically abused and psychiatrically disturbed children. Journal of Abnormal Psychowgy. 94.298-307.

9. Pederson. D., Moran, G [1996]. Expressions of the attachment relationship outside of the strange situation. Child Development. 67. 915-927.

10. Pederson. D., Moran, G (1996). Expressions oF the attachment relationship outside of the strange situation. Child Development. 67. 915-927.

11. Van Thendoorn, M. H. [1995]. Adult attachment representations, parental responsiveness, and infant attachment: A meta-analysis on the predictive validity of the Adult Attachment Interview. Psychological Bulletin. 117, 387-403.

12. Dozier. M; Stovall.K. C; Albus. K. E; Bates. B. [2001]. Attachment for infants in foster care: The role caregiver state of mind. Chil. Deve. 72[2]: 1467-77.

13. .Bowlby, J. [1969]. Attachment and Loss: vol. 1. Attachment. London: The Hogarth press and Institute of psycho Analysis. 112. 105-117

14. Wolff. Sula. [1989]. Childhood & Human Nature the Development, of personality. Routledge, London and New York. 99. 95-110.

## ЭТАПЫ ФОРМИРОВАНИЯ ПРИВЯЗАННОСТИ И СОЦИАЛИЗАЦИЯ ЛИЧНОСТИ РЕБЕНКА

Монтезириниййа Акбер Фиридун, докторант института философии, социологии и права Национальной академии наук Азербайджана

В статье анализируются проблемы формирования привязанности детей к кому-либо. Исследования различных авторов подтвердили, что на формирование привязанности детей оказывают влияние следующие факторы: условия, в которых проживает ребенок, качество ухода за ним, индивидуальные качества самого ребенка и положение его в семье. Общий вывод заключается в том, что социализация ребенка в значительной степени зависит от того, как развивается привязанность ребенка и ощущение им чувства своей безопасности.

## STAGES OF FORMATION OF ATTACHMENT AND SOCIALIZATION OF THE PERSON OF THE CHILD

Monteziriniyya Akber Firidun, the doctoral candidate of institute of philosophy, sociology and the right of National academy of Sciences of Azerbaijan

In article problems of formation of attachment of children to someone are analyzed. Researches of various authors have confirmed that formation of attachment of children is influenced by following factors: conditions in which the child lives, quality of care of it, individual qualities of the child and its position in a family. The general conclusion consists that socialization of the child substantially depends on how attachment of the child and sensation it of feeling of the safety develops.